# NÜMUNƏVİ MƏDƏNİ XİDMƏT



*Müsahibimiz Tərtər Rayon Mədəniyyət Şöbəsinin müdiri Ramiz Şabanovdur. Ramiz müəllim 9 ildir ki, bu vəzifədə çalışır. Harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq həmişə öz təşkilatçılıq bacarığı, məsuliyyətliliyi, qayğıkeşliyi və xeyirxahlığı ilə fərqlənib.*

*Şabanov Ramiz İsmayıl oğlu 1952-ci ildə qərbi Azərbaycanda anadan olub. 1969-cu ildə orta məktəbi bitirib, 1970-ci ildə Ermənistan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olub. 1974-cü ildə həmin institutu bitirib. 1974-cü ilin avqustundan 1980-ci ilin dekabrınadək ixtisası üzrə müəllim işləyib. Həmin dövrdə "Xalq maarifi əlaçısı" döş nişanı ilə təltif olunmuşdur. Elmi-pedaqoji məruzələrinə görə 2 dəfə təhsil nazirliyinin diplomuna layiq görülmüş metodik müəllimdir. 1980-1984-cü illərdə "Vardanis" rayon qəzetində müxbir işləyib.*

1984-1986-cı illərdə ailə vəziyyətilə əlaqədar olaraq müəllim işləyib. 1986-cı ildə Ermənistan KP Vardanis Rayon Komitəsində məsləhətçi, 1986-cı ildən 1989-cu ilədək Ermənistan KP Vardanis Rayon Komitəsi təşkilat şöbəsində təlimatçı işləyib. 1989-cu ildən Tərtər rayonunda yaşayır. 1990-1991-ci illərdə rayondakı "Paris kommunası" kolxoz partiya komitəsinin katibi, 1991-ci ildən 1996-cı ilədək Tərtər Rayon İcra Hakimiyyətinin təlimatçısı olmuşdur. 1996-cı ilin martından rayon mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışır. İki oğlu, bir qızı var.

Şöbənin fəaliyyəti barədə R.Şabanov aşağıdakıları söylədi:

-Son illərdə respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələr, Azərbaycanın dünya birliyinə inteqrasiyası və diqqətlənməsi, eyni zamanda ümummilli liderimiz, eks-prezidentimiz Heydər Əliyev cənablarının mədəniyyət işinə qayğı və diqqəti şöbəmizdə də 2002-ci ildən başlayaraq ayrı-ayrı bölgələrdə Mədəniyyət Nazirliyinin xətti ilə keçirilmiş müşavirələr də yerlərdə mədəniyyət işinin canlanmasına, adamların işə məsuliyyət hissinin güclənməsinə yeni təkan vermişdir. Bu rayonumuzun mədəniyyət işçilərinin fəaliyyətində də özünü parlaq şəkildə göstərir.

2004-cü ildə rayonumuzun mədəniyyət işçiləri Respublika Prezidentinin fərman və sərəncamlarını, Mədəniyyət Nazirliyinin müvafiq əmr və tapşırıqlarını, rayon icra hakimiyyətinin sərəncamlarını əldə rəhbər tutaraq şöbənin tədbirlər planına uyğun işləmişdir. Mədəniyyət işçiləri 63 min yerli əhaliyə, 15 mindən çox qaçqın və məcburi köçkünə, habelə rayonun ərazisində yerləşmiş hərbi hissələrin əsgər və zabitlərinə mədəni xidmət göstərmişdir. Mədəni-maarif müəssisələrində əlamətdar və tarixi günlər, ayrı-ayrı şair və yazıçıların, görkəmli şəxsiyyətlərin yubileyləri ilə əlaqədar rəngarəng tədbirlər keçirilmişdir. Hər bir tədbirə uyğun sərgilər, güşələr, fotostendlər hazırlanmışdır. İl ərzində mədəni-maarif müəssisələrində 2784 adda mədəni-kütləvi tədbirlər keçirilmişdir ki, həmin tədbirlərdə 82 mindən çox dinləyici və tamaşaçı iştirak etmişdir.

Müəssiələrdə bədii özfəaliyyət kollektivlərinin işinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirildiyindən 1558 üzvü olan 98 bədii özfəaliyyət dərnəyinin işi daha da canlanmışdır.

Söylən kənd mədəniyyət evində fəaliyyət göstərən "Həcər" folklor rəqs qrupu, şəhər 7-illik uşaq musiqi məktəbinin "Tər çiçəklər" kollektivi və "Tərtər" xalq kollektivinin maraqlı rəngarəng çıxışları rayon ictimaiyyətinin razılığına səbəb olmuşdur.

İl ərzində 2 dəfə mədəniyyət müəssisələrində olan özfəaliyyət kollektivlərinin baxış-müsabiqəsi keçirilmişdir. İstedadlı yeniyetmə və gənclərin respublika baxış musabiqəsində iştirakı təmin olunmuşdur. Ayrı-ayrı özfəaliyyət kollektivləri vaxtaşırı rayonumuzun ərazisində olan hərbi hissələrdə olmuş, əsgərlər qarşısında maraqlı və geniş proqramlı





konsertlər vermiş, səhnəciklər göstərmişlər.

Klub və kitabxana müəssisələrində vaxtaşırı Böyük Vətən, Qarabağ müharibəsi veteranları ilə yeniyetmə və gənclərin, hərbçilərin görüşləri təşkil olunmuşdur. Ayrı-ayrı müəssisələrdə Vətənimizin bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş igid döyüşçülərin anım günü keçirilmişdir. Hərbi-vətənpərvərlik mövzusunda 814 məruzə və mühazirə oxunmuş, 230 kitabın müzakirəsi təşkil olunmuşdur.

Keçən il kitabxanalarda olan 220 min nüsxə kitab fondundan 24500 oxucu istifadə etmişdir. Şöbəyə 8 milyon manatlıq latın qrafikalı yeni kitab və kitabxana texnikası alınmışdır. MKS-yə 320 kitab hədiyyə edilmişdir. Əvvəlki illərdən fərqli olaraq kitabxanalarda keçirilən tədbirlərin sayı artırılmış, keyfiyyəti yaxşılaşdırılmışdır. İki kitabxanada cari təmir işləri görülmüşdür.

Rayon 7-illik uşaq musiqi məktəbində il ərzində 6 ixtisaslı gənj müəllim işə götürülmüşdür. Məktəbdə 22177 min manat dəyərində cari təmir işləri görülmüşdür. Bu da məktəbdə dərslərin səmərəli və keyfiyyətinin yüksəldilməsinə səbəb olmuşdur.

Rayonun mədəniyyət və istirahət parkında əhalinin asudə vaxtının daha da yaxşı təşkili üçün məqsədyönlü işlər görülmüşdür. Burada 550 qızılgül kolu, 62 ədəd yaşıllıq ağacı basdırılmışdır. İl ərzində pulla xidmət əsasında 1 milyon 440 min manat vəsait əldə edilmişdir. Parkda Amerikanın "Uşaqları qoruyun" təşkilatının köməkliyi ilə 9815 ABŞ dolları məbləğində sağlamlıq və əyləncə mərkəzi yaradılacaqdır. Görüləcək işlərin layihə smetası hazırdır. Bu günlərdə işə başlanacaqdır.

İl ərzində şöbəyə kompüter dəsti alınmış, onun internet şəbəkəsinə qoşulması təmin olunmuşdur.

Rayonumuzda olan 24 tarixi abidənin qorunmasına nəzarət artırılmış, mövcud siyahıya əsasən abidələrin fotoşəkilləri çəkilmiş, qoruq lövhəsi vurulmuşdur.

Şöbənin tabeliyində olan 1 klub, 2 mədəniyyət evi daxili imkanlar hesabına təmir edilmişdir. Mədəni-maarif müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirmək üçün 24 milyon 485 min manatlıq inventar və avadanlıq alınmışdır.

Mədəniyyət işçilərindən 21 nəfəri Respublika Hazırlıq və İxtisasartırma kursunun dinləyicisi olmuşdur.

Şöbəmizdə əhaliyə göstərilən mədəni xidmət işinin vəziyyəti hərtərəfli təhlil edilmiş, görüləcək işlər barədə geniş tədbirlər planı hazırlanmışdır. Qarşıda duran vəzifələrin uğurla həyata keçməsi üçün işçilərə konkret tapşırıqlar verilmişdir.

Artıq o vaxtdan bizi dörd aydan çox vaxt ayırır. Ötən dövr ərzində mədəniyyət işçilərimiz yüksək əmək fəallığı göstərirlər. Bu isə şübhəsiz öz bəhrəsini verməkdədir.

Hazırda mədəniyyət şöbəsi özündə 1 rayon, 19 kənd mədəniyyət evini, 12 kənd klubunu, 1 MKS-ni, 1 şəhər gənclər, 1 uşaq, 53 kənd kitabxanalarını 1 tarix-diyarşünaslıq muzeyini, 1 şəhər 7 illik uşaq musiqi məktəbini, 1 mədəniyyət və istirahət parkını, 24 tarix və mədəniyyət abidəsini birləşdirir. Müəssisələrdə 358 nəfər çalışır ki, onlardan 40 nəfəri ali, 188 nəfəri orta ixtisas, 37 nəfəri ümumi orta təhsilli, 101 nəfəri isə texniki işçilərdir. Onların hər biri müşavirənin tövsiyyələrinə layaqətlə əməl etmək üçün qüvvə və bacarıqlarını əsirgəmirlər. Odur ki, əhaliyə göstərilən mədəni xidmət işi günbəgün yaxşılaşmaqdadır. Müəssisələrdə konstitusiya günü, Milli Dirçəliş günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi günü, 20 yanvar faciəsinin ildönümü, ümumrespublika Gənclər günü, Xojalı soyqırımının ildönümü, Ümumdünya mülki-müdafə günü, 8 mart Beynəlxalq Qadınlar bayramı günü və başqa tədbirlər müəssisələrdə yüksək səviyyədə qeyd olunmuş və əhalinin marağına səbəb olmuşdur.

Mərkəzləşdirilmiş Kitabxana Sistemində də zona müşavirəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün əhaliyə xidmət işinin forma və metodlarını yaxşılaşdırmışdır. Əvvəllər bu sahədə nöqsan və çatışmazlıqlar olsa da, cari ilin əvvəlindən MKS-də fondların komplektləşdirilməsi, məzmunca əhəmiyyətini itirmiş ədəbiyyatdan təmizlənməsi işləri başa çatdırılmışdır. Kitabxana fondlarını zənginləşdirmək məqsədi ilə ayrı-ayrı şair və yazıçılara, yerli ziyalılara müraciət edilmiş, yerli yazıçılar tərəfindən ötən dörd ay ərzində 18 çap olunmuş latın qrafikalı yeni kitab MKS-yə hədiyyə olunmuşdur. Eyni zamanda, 2004-cü il üçün rayon mərkəzləşdirilmiş kitabxana sistemi ilə yeni kitablar alınması üçün respublika kitabxa-

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

na kollektoru ilə 8 milyon manat dəyərində müqavilə bağlanmış və yeni kitablar alınmışdır. Kitabxana fondundan indiyədək 5100 oxucu istifadə etmişdir.

Kiatbxanalarda əlamətdar və tarixi günlərə, görkəmli şəxsiyyətlərin, yazıçı və şairlərin yubileylərinə aid müxtəlif kütləvi tədbirlər təşkil olunmuşdur.

Müəssisələrdə "20 yanvar-qan yaddaşımız", "Xocalı faciəsi əsrin faciəsidir", "XX əsrin qanlı soyqırımı" və başqa mövzularda guşələr və fotosərgilər yaradılmış, "Azərbaycanlıların soyqırımını unutmayaq", "İllərin qan yaddaşı", "Tökülən qan yerdə qalmamalıdır", "Vətən sizə güvənir", "Vətənə xidmət şərəfdir" və s. başlıqları altında məruzə və mühazirələr oxunmuşdur.

Rayonun mədəni-maarif müəssisələrində "Uşaqların təlim və tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında" Dövlət proqramının icrası ilə əlaqədar "Uşaqlar bizim gələcəyimiz və sabahımızdır", "Uşaqları qoruyaq" başlığı altında sərgilər və fotoşəkillər təşkil olunmuşdur. Uşaqların hərbi vətənpərvərlik və milli adət-ənənələr ruhunda tərbiyə olunması məqsədi ilə "Vətən nədən başlayır", "Ana vətən", "Doğma Azərbaycanım", "Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2000-ci il tarixli 371 saylı fərmanı ilə təsdiq olunmuş "Narkotik vasitələrin və psixotrop maddələrin, prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə" Dövlət proqramı ilə əlaqədar "Narkomaniyaya qarşı mübarizə hamının borcudur", "Narkomaniya ağ ölümdür", Beynəlxalq ailə ilinin qeyd olunması ilə əlaqədar "Ailə xoşbəxtlik meyarıdır", "Ana və ata ilk tərbiyəçilərdir", "Sülh mədəniyyəti və dünya uşaqlarına münasibətdə qeyri-zorakılıq, insanpərvərlik və s. mövzularda məruzə və mühazirələr oxunmuş, söhbətlər aparılmış, görüşlər təşkil olunmuşdur. Əksər mədəni-kütləvi tədbirlərin yüksək səviyyədə keçirilməsi üçün işçilərə lazımi metodiki köməkliklər də olunmuşdur.

Rayon MKS-i Kəlbəcər rayonunun mərkəzləşdirilmiş kitabxana sisteminə 250 nüsxə kitab hədiyyə verilmişdir.

Mədəni-maarif müəssisələrində bədii özfəaliyyət kollektivlərinin ifaçılıq səviyyəsinin yüksəldilməsinə diqqət artırılmışdır.

Rayon tarix-diyarşünaslıq muzeyi üçün müvafiq bina ayrılması məqsədi ilə rayon icra hakimiyyəti qarşısında məsələ qaldırılmışdır. Muzeyə yeni eksponatlar alınması üçün 2 milyon manat vəsait ayrılmasına nail olmuşdur.

Rayon ərazisində olan tarix və mədəniyyət abidələri mövcud təlimata uyğun olaraq inventarlaşdırılmış, fotosərgiləri çəkilmiş və qoruq lövhələri vurulmuş, bu sahəyə nəzarət artırılmışdır.

Əhaliyə mədəni xidmətin yaxşılaşdırılmasında dövrü mətbuatın böyük rol oynadığını yaxşı bilən işçilərimiz 2004-cü ilin abunə yazılışında da fəallıq göstərmişlər.

Aidiyyatı təşkilatlarla əlaqə saxlayaraq cari ildə mədəni-maarif müəssisələrinin təmir olunması və maddi-texniki bazasının möhkəmləndirilməsi üçün vəsait ayrılmasına da nail olmuşdur.

**E. HƏSƏNQIZI**

**Allah musiqini insanlara əvəzsiz nemət kimi göndərib, bu nemətdən hamıya pay düşür. Deyirlər, musiqinin dili yoxdur, həqiqətən hansı dildə oxunmasından asılı olmayaraq gözəl musiqi həmişə sevilib, qəlbə yatıb.**

**Bəstəkarlar, müğənnilər, xanəndələr, ifaçılar - bu sirli-sehirli aləmin sakinləri musiqini bizlərə ərməğan edirlər. Neçə-neçə konservatoriyalar, musiqi akademiyaları, musiqi məktəbləri bu barədə yorulmadan çalışır, insanlara öz töhfələrini verirlər. Bu gün gənc nəsildə musiqiyə, mədəniyyətə maraq çoxdur və bu çox sevindirici haldır.**

**Belə musiqi məktəblərindən biri haqqında söhbət açacağıq. Müsahibimiz Hacıqabul şəhər yeddiillik musiqi məktəbinin direktoru Zakir Hüseynovdur. O, 1958-ci ildə Hacıqabul şəhərində anadan olub. 1976-cı ildə Asəf Zeynallı adına musiqi texnikumunda təhsil alıb. Əmək fəaliyyətinə Əli Bayramlı şəhər musiqi məktəbində müəllim kimi başlamış, 1984-cü ildə Ü. Hacıbəyov adına Milli Konservatoriyanın tar sinfinə daxil olmuş, 1988-ci ildə oranı bitirmişdir.**

**Hacıqabul rayon statusu aldıqdan sonra rayonda yeddiillik musiqi məktəbi fəaliyyətə başlayıb. İlk öncə dərs hissə müdiri vəzifəsində çalışmış, 2001-ci ildən isə məktəbin direktoru vəzifəsində çalışır. Ailəlidir, 3 övladı var.**

**- 1990-cı ildə Hacıqabul rayon statusu aldıqdan sonra rayon mədəniyyət şöbəsi, onun tabeliyində də musiqi məktəbi öz fəaliyyətinə başladı. Sinif**